# Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qəbələdə

## İlham Əliyev Qəbələnin Nic qəsəbəsindəki Müqəddəs Məryəm Ana Alban kilsəsində olub

(Əvvəli 1-ci səhifədə).

- Bura kolxoz dövründə fındıq anbarı idi.

Prezident İlham Əliyev: Sonra müstəqillik dövründə burada bir kilsə bərpa edilmişdi.

- Bəli, Tur Heyerdal gələndə Mədəniyyət Nazirliyi və Norveç humanitar təşkilatı tərəfindən bir kilsə bərpa olundu. O kilsə ümummilli liderin vaxtında bərpa olundu. Bu kilsə isə bizim Leyla xanımın dəstəyi ilə Heydər Əliyev Fondu tərəfindən bərpa edildi.

Prezident İlham Əliyev: Kiş kəndindəki kilsə deyəsən bundan kiçikdir.

-Çox kiçikdir, o birinci kilsədir, balacadır. Ən birinci, qədim kilsədir. Cənab Prezident, biz kilsəni alban, ortodoks konsepsiyasına uyğun olaraq bərpa etdik. Ermənilər özününküləşdirmişdilər. Adətən ermənilərdə Qriqoryan kilsəsində altar hissə daha hündür olur. Albanlarda isə 3 pilləkəndən ibarətdir. Bu, memarlıqda əsas elementdir. Biz onun üstünü açanda gördük ki, ermənilər bunun üstünü bağlayıblar. Biz bunları, alban xaçını təmizlədik.

Prezident İlham Əliyev: XIX əsrdə bütün alban tarixi mirasını özününküləşdirmək istəmişdilər.



-Çalışıblar.

-Prezident İlham Əliyev: Sizin əlinizdən almışdılar.

-Bəli, biz, sadəcə, imtina edib saxladıq. Bizi erməniləşdirmək istəyirdilər, etnos kimi erməniləşdirmək istəyirdilər.

Prezident İlham Əliyev: Bilirəm, onların məqsədi o idi.

Prezident İlham Əliyev: Siz indi gərək Mədəniyyət Nazirliyi ilə birlikdə bu əlifbada kitablar da dərc edəsiniz, uşaqlar da bu əlifbanı bilsinlər ki, bu, bərpa olunsun. Çünki bu əlifba demək olar ki, istifadə olunmur. Ona görə, gərək bərpa edək. Elmlər Akademiyası, Mədəniyyət Nazirliyi, Heydər Əliyev Fondu ilə birlikdə. Məşğul olun, bu əlifbada kitablar da dərc olunsun və uşaqlar da bu əlifbanı bilsinlər ki, bu əlifbanı biz bərpa edək.

-Cənab Prezident, bizim müqəddəs kitab birinci dəfə latın əlifbası ilə alban dilinə tərcümə olunub, onu Sizə hədiyyə edirik. Birinci dəfədir, hələ heç təqdimatını etməmişik. Müqəddəs kitabdır.

Prezident İlham Əliyev: Alban dili də yaşasın, bütün udilər bu dili bilməlidirlər.

-Udilər hamısı bilirlər, xüsusən Azərbaycan dilini çox gözəl bilirlər.

Prezident İlham Əliyev: O, öz yerində, Azərbaycan dili dövlət dilidir. Amma, alban dili təkcə məişətdə yox, burada udilər arasında geniş istifadə olunmalıdır.

-Müqəddəs kitablar buraxırıq, təqvimlər buraxırıq. Bunları yavaş-yavaş bərpa edirik. Cənab Prezident, Siz noyabrın 24-də Ağdam məscidinin önündə olandan dörd gün sonra mən də orada idim, Robert müəllim də orada idi. Siz bütün dünyaya bəyan etdiniz ki, işğaldan azad olunmuş torpaqlarda biz kilsələri, məscidləri, monastırları bərpa edəcəyik, udi qardaşlar buraya gələcəklər. Siz bizi yaşatdınız. Biz oraya getdik, cənab Prezident. Biz Xocavəndə, Tuğa da getdik. Necə dediniz ki, qardaşlar buraya gələcəklər, bəli, biz gəldik.

Prezident İlham Əliyev: İndi mənə dedilər ki, bir məktəbin də təmirinə ehtiyac var. 1968-ci ildə tikilmiş məktəb yararsız vəziyyətdədir. O göstərişi də verəcəyəm. Sərəncam da imzalanacaq ki, o məktəbi də bərpa edək. Lazım olan bütün başqa işlər də görüləcək. Mən hər zaman sizin yanınızdayam.

## Qəbələ Dəmir yolu Vağzalının və Ləki stansiyası-Qəbələ birxətli dəmir yolunun açılışı olub

Mayın 15-də Qəbələ Dəmir Yolu Vağzalının və Ləki stansiyası-Qəbələ birxətli dəmir yolunun açılışı olub.




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər.

Dəmir yollarının müasirləşdirilməsi ölkəmizin iqtisadi potensialını nümayiş etdirməklə yanaşı, həm də sosial sahənin inkişafına yüksək diqqətin real göstəricisidir.

Dövlətimizin başçısına və birinci xanıma məlumat verildi ki, hazır vəziyyətə gətirilən Ləki stansiyası-Qəbələ birxətli dəmir yolunun tikinti işlərinə 2018-ci ildə başlanılıb. Dəmir yolu xətti ox üzrə 42,3 kilometr, yan yollarla birlikdə isə 44,5 kilometrdir.

Diqqətə çatdırılıb ki, ümumilikdə, layihə üzrə 122 süni mühəndis qurğusunun, Ağdaş dəmir yolu dayanacağının, Qəbələ Dəmir Yolu Vağzalının və stansiyasının, Qəbələ dartı yarımstansiyasının tikintisi, həmçinin Hacıalılı yarımstansiyasının təmiri işləri yerinə yetirilib.

Qeyd edək ki, ən müasir yolnəqliyyat infrastrukturu, ilk növbədə, vətəndaşların rahatlığına xidmət edəcək. Bu layihənin reallaşması Qəbələdən paytaxta və digər yerlərə gedən sakinlərin rahat və təhlükəsiz şəkildə mənzil başına çatmasına hərtərəfli imkan yaradır.

**“Azərbaycan”**

## Qəbələ Rayon İcra Hakimiyyəti yanında yaradılan ictimai şuraya seçkinin təşkil edilməsi haqqında Qəbələ Rayon İcra Hakimiyyəti başçısının sərəncamı

Azərbaycan Respublikasının “İctimai iştirakçılıq haqqında” 22 noyabr 2013-cü il tarixli 816-IVQ nömrəli Qanununa, Azərbaycan Respublikası Prezidentinin “İctimai iştirakçılıq haqqında” Azərbaycan Respublikasının 2013-cü il 22 noyabr tarixli 816-IVQ nömrəli Qanunun tətbiqi barədə 16 yanvar 2014-cü il tarixli 89 nömrəli fərmanına, Azərbaycan Respublikası Nazirlər Kabinetinin “İctimai şuranın vətəndaş cəmiyyəti institutları tərəfindən seçilməsinə dair Əsasnamə”nin təsdiq edilməsi haqqında 30 may 2014-cü il tarixli 171 nömrəli qərarına əsasən, “Yerli icra hakimiyyətləri haqqında Əsasnamə”nin 6.8-ci maddəsini rəhbər tutaraq **qərara alıram:**

I. Qəbələ Rayon İcra Hakimiyyəti yanında (rayon icra hakimiyyətinin əməkdaşlarından 4 üzv, vətəndaş cəmiyyəti institutu nümayəndələrindən isə 5 üzv) ictimai şuraya seçkinin təşkil edilməsi məqsədilə 9 nəfərdən ibarət aşağıdakı tərkibdə seçki komissiyası yaradılsın.

| | | |
|---|---|---|
| **Seçki komissiyanın sədri** | | |
| 1. | Ağasəfov Abil Adil oğlu | Qəbələ RİH başçının birinci müavini, YAP Qəbələ Rayon Təşkilatının sədri |
| **Seçki komissiyanın üzvləri** | | |
| 2. | Cəfərov Zülfüqar Cəfər oğlu | Qəbələ RİH başçısı aparatının Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri |
| 3. | Hüseynov Absalam Zahid oğlu | Qəbələ RİH başçısı aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini - dini qurumlarla işin təşkilatçısı |
| 4. | Şirinov Anar Tofiq oğlu | Qəbələ RİH başçısı aparatının böyük məsləhətçi - Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyanın məsul katibi, YAP Qəbələ Rayon Gənclər Birliyinin sədri |
| 5. | Nəzirov Yaşar Sabir oğlu | Qəbələ Rayon Təhsil Şöbəsinin müdir müavini |
| 6. | Bayramova Sədaqət Əflatun qızı | Qızıl Aypara Cəmiyyətinin Qəbələ Rayon Bölməsinin sədri |
| 7. | Hacıyev Tahir İbrahim oğlu | Qəbələ Rayon Ağsaqqallar Şurasının üzvü |
| 8. | Sabirli Pərviz Çingiz oğlu | Dİ və İXİHİ-nın Qəbələ rayon şöbəsinin sədri |
| 9. | Səhrablı Mehrab Mirzə oğlu | Qəbələ Regional QHT Resurs və Təlim Mərkəzinin İcraçı direktoru |

II. Seçki Komissiyasına tapşırılsın ki, ictimai şuraya seçkini “İctimai şuranın vətəndaş cəmiyyəti institutları tərəfindən seçilməsinə dair Əsasnamə”nin tələblərinə uyğun təşkil etsin.

III. Bu sərəncam Qəbələ Rayon İcra Hakimiyyətinin rəsmi internet səhifəsində (qebele-ih.gov.az) yerləşdirilsin və “Qəbələ” qəzetində dərc edilsin.

IV. Rayon icra hakimiyyəti başçısı aparatının Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri Fuad Zəkəriyyəzadə sərəncamı aidiyyəti üzrə çatdırılmasını təmin etsin.

V. Sərəncamın icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**Qəbələ Rayon İcra Hakimiyytinin başçısı**
**Səbuhi Abdullayev.**

## 15 may - Beynəlxalq Ailə Günü

Beynəlxalq Ailə Günü BMT-nin Baş Assambleyasının qətnaməsinə müvafiq olaraq 1994-cü ildən qeyd olunur. Azərbaycan 2008-ci ildən bu ənənəyə qoşulub. Respublikamızda ailə bayramının qeyd olunması dövlət qadın siyasətinin əyani təcəssümüdür.

Ailə dəyərlərinin qorunub saxlanılaraq gələcək nəsillərə ötürülməsi, gənclərin yaşlılara hörmət ruhunda tərbiyə olunması, ailədə sülh və dözümlülük mədəniyyətinin, sağlam həyat tərzinin təbliği məqsədi ilə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən ailə bayramı hər il müxtəlif bölgələrdə təşkil olunur.

## 18 May-Beynəlxalq Muzeylər Günü

Hər il mayın 18-ni dünya mədəni ictimaiyyəti Beynəlxalq Muzey Günü kimi qeyd edir. 1978-ci ildən etibarən bu bayram hər il 150-dən çox ölkədə qeyd olunur.

“Muzey” yunan sözü olub, “muzalar məbədi” deməkdir.

Azərbaycanda muzey işinin tarixi çoxda qədim deyil. İlk milli muzeyin yaradılması Azərbaycan Xalq Cümhuriyyəti dövrü ilə bağlıdır. 1919-cu il dekabrın 7-də “İstiqlal” muzeyi fəaliyyətə başladı. Muzeydə tariximizi, milli-mənəvi dəyərlərimizi əks etdirən eksponatlar-məişət əşyaları, silahlar və əlyazmalar toplanmışdı. Muzeyin təşkili və fəaliyyəti ilə bağlı bütün xərclər Azərbaycan Parlamenti Rəyasət Heyətinin hesabına idi. Azərbaycan həm də açıq səma altında yerləşən muzeylər ölkəsidir. Bunu Qobustanda, İstisuda (Kəlbəcər) və Gəmiqayada (Naxçıvan) qayalar üzərindəki təsvirlər sübut edir. Məhşur Norveç alimi və səyyahı Tur Heyerdal Qobustanda olarkən buranı obrazlı şəkildə “səma altında muzey” adlandırmışdır.

## 28 may - Respublika günü

1918-ci il mayın 28-də Tiflis şəhərində Azərbaycanda müstəqil dövlətin-Azərbaycan Xalq Cümhuriyyətinin yaradıldığı elan olundu. Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay mövcud olmuşdur. Lakin bu qısa müddətdə çox işlər həyata keçirildi. Bu dövlətin yaradıcıları olan M. Ə. Rəsulzadə, F. X. Xovski, N. Yusifbəyli, Ə. Topçubaşov, H. Ağayev və başqa vətənpərvər istiqlalçılar gecəni gündüzə qataraq milli dövlətçiliyimizin əsaslarını möhkəmləndirdilər.

Xalqın təkidli tələbi ilə 1991-ci il fevralın 5-də Azərbaycan SSR Ali Sovetinin sessiyası dövlətin adını dəyişdirərək “Azərbaycan Respublikası” adlandırdı. Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli, ay-ulduzlu bayrağı bu respublikanın da dövlət bayrağı kimi təsdiq olundu. Həmin ilin mayın 21-də verilmiş fərmanla 28 may Respublika Günü elan edildi.